**PRESS-RELİZ**

**Gənc Alim və Tədqiqatçıların 6-ci qrant müsabiqəsi elan olunub**

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu** Gənc alim və tədqiqatçıların elmi fəaliyyətinin stimullaşdırılması və onlara elmi tədqiqatlar aparmaq üçün əlverişli imkanların yaradılması, gənc kadr potensialının gücləndirilməsi üçün proqramların işlənib hazırlanması, onların elmi və peşəkarlıq səviyyələrinin yüksəldilməsi, innovasiya fəaliyyətinin dəstəklənməsi, regional və beynəlxalq səviyyəli proqram və layihələrdə iştirak etməyə cəlb edilməsi məqsədi ilə 2021-ci ildə Gənc Alim və Tədqiqatçıların 6-cı qrant müsabiqəsini elan edib.

Müsabiqə üzrə iştirakçıların qeydiyyatı və layihə təkliflərinin qəbulu 12 iyul 2021-ci il tarixdən etibarən, elektron qaydada "e-QRANT" - "Qrant layihələrinin Elektron İdarəolunması Sistemi" rəsmi internet səhifəsində (http://e-grant.sdf.gov.az/) 30 avqust 2021-ci il saat 17:00-dək həyata keçiriləcəkdir. Bu sistem elektron-hökumət prinsipləri əsasında qurulub və "ASAN-İmza"dan istifadəni də nəzərdə tutur. "Asan-imza"nı həm layihə rəhbəri, həm də layihədə iştirakı nəzərdə tutulmuş bütün iştirakçılar əldə etməli, bu şəxslərin hamısı qeydiyyatdan keçməli və "virtual şəxsi kabinet"lərini formalaşdırmalıdırlar.

Layihələrin qəbulu üçün nəzərdə tutulmuş müddət ərzində qrant iddiaçılarına kömək və sualların cavablandırılması məqsədilə onlayn məsləhət seminarlarının keçirilməsi nəzərdə tutulub. Bu barədə əlavə məlumat Fondun internet səhifəsində (http://sdf.gov.az/az) dərc olunacaq. Müsabiqəyə təqdim olunduğu gündən etibarən, layihələrə baxılacaq və nəticələri barədə müsabiqə iştirakçılarına elektron qaydada məlumat veriləcəkdir.

***Elmin İnkişafı Fondunun mətbuat xidməti***